View the original article

DÜNYA

# Macarıstan parlamenti baş nazirin toxunulmazlığını ləğv edib

Sentyabr 28, 2026




Peter Madyar

Macarıstan parlamenti baş nazir **Peter Madyar**ın və keçmiş baş nazir Viktor Orbanın hökumətində çalışmış iki deputatın toxunulmazlığını qaldırıb. Bu barədə ölkə prokurorluğu vəsatət vermişdi. Məlumatı Macarıstanın "Index" və "Telex" nəşrləri yayıb.

Madyarla bağlı cinayət işi 2024-cü il iyunun 21-də — onun Avropa Parlamentinə seçilməsindən iki həftə sonra baş vermiş insidentlə əlaqədardır. İstintaqın versiyasına görə, Madyar gecə klubunda onu videoya çəkən bir kişinin telefonunu əlindən alaraq Dunay çayına atıb.

Həmin ilin sentyabrında Macarıstan prokurorluğu Madyarın toxunulmazlığının qaldırılması üçün Avropa Parlamentinə müraciət etsə də, rədd cavabı alıb. Amma 2026-cı ilin mayında Madyarın partiyası parlament seçkilərində qalib gəlib və o, deputat mandatı qazandıqdan sonra istintaq bərpa olunub. Sentyabrın 22-də baş prokuror vəzifəsini icra edən İştvan Laytar onun toxunulmazlığının ləğvi barədə parlamentə vəsatət təqdim edib.

Medianın məlumatına görə, Madyar parlamentdə konstitusiya çoxluğuna malik "Tisa" fraksiyasının üzvlərindən onun toxunulmazlığının ləğvinə səs vermələrini istəyib. "Bizim Vətənimiz" fraksiyasının deputatları da bu qərarın lehinə səs veriblər.

Orbanın "Fides" partiyasının və Xristian-Demokrat Xalq Partiyasının deputatları isə öz fraksiyalarından olan **Mikloş Şestak** və **Balaş Hanko**na qarşı vəsatətə etiraz olaraq parlament iclasına qatılmayıblar. Şestak 2014-2018-ci illərdə Orban hökumətində milli inkişaf naziri, Hanko isə 2024-2026-cı illərdə mədəniyyət və innovasiya naziri vəzifələrində çalışıb.

Şestak rüşvət almaqda və digər cinayətlərdə, Hanko isə qrant vəsaitlərini təyinatından kənar istifadə etməkdə şübhəli bilinir. Sentyabrın 28-də hüquq-mühafizə orqanları parlamentin qərarını gözləmədən Şestakı saxlayıblar.

**"Qanun qarşısında hamı bərabərdir — istər zavod fəhləsi olsun, istər deputat, istərsə də baş nazir. Bu gün Viktor Orbanın ətrafındakı korrupsiyaya bulaşmış nazirlər də bu dərsi aldılar. Gizlədəcək bir şeyi olmayan şəxsin ədalət mühakiməsindən qorxmasına ehtiyac yoxdur"**, – **Madyar** parlamentin qərarını belə şərh edib.


## Buna da bax:

Orban gedir, 'orbanizm' qalır

Orban getdi, Avropanın işləri düzələcəkmi

Macarıstan Aİ bəyannaməsindən Ukraynanın sürətli qəbulu bəndini sildirib


AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur